**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

Haradan: SBRS

Haraya: MİƏİ, MRTİ, MİHİ, MHSİ

Surəti: Aİ üzv ölkələrindəki Səfirliklər, SVŞN, NNAT, NAVŞ

Çıxış nömrəsi: SBRS/ 751 /15

Tarix: 03 / 12 /15

Sənəd necə göndərilir: Elektron poçt

Səfirliyin .......................N-li məktubuna istinad

Səhifələrin sayı: 1+6

Əlavə olunur

Məhdudluq qrifi: Adi

Təcililiyi: Çox təcili

Vacibliyi: Çox vacib

Əvvəlki müraciətlər:

XİN-in .................... N-li məktubuna cavab
.........................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə
Nazir müavini: A.Əzimova

Məlumat verilməsi üçün: AR Prezidentinin Administrasiyasına
AR İqtisadiyyat və Sənaye Nazirliyinə

**Məsələyə dair:** *Avropa Qonşuluq Siyasətinin yeniləşdirilmiş strategiyasının gələcək çağırışları və təqdim edəcəyi imkanlara dair*

Səfir: Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Məlum olduğu kimi, 18 noyabr 2015-ci il tarixində Avropa Qonşuluq Siyasətinin (AQS) nəzərdən keçirilməsinə dair Avropa Parlamenti, Avropa İttifaqı (Aİ) Şurası, Avropa İqtisadi və Sosial Komitəsi və Regionlar üzrə Komitənin Birgə Müraciət Sənədi (Joint Communication) dərc edilmişdir. "Yeni" AQS-nin gələcək çağırışları və Aİ-Azərbaycan ikitərəfli əməkdaşlığının genişləndirilməsi istiqamətində təqdim edə biləcəyi imkanlarla bağlı aşağıdakıları diqqətinizə çatdırırıq:

1. Yeniləşdirilmiş AQS-də mövcud regional geosiyasi təhdidlərin aradan qaldırılmasında, habelə onların həllində əsas oyunçu və təsir vasitəsi kimi Aİ öz rolunu məhdudlaşdırmışdır. Sənəddə də etiraf olunduğu kimi, AQS Aİ-nin qonşuluqdakı çağırışları həll etmək iqtidarında deyil. Digər tərəfdən, yeni AQS-nin Aİ tərəfindən beynəlxalq hüququn aliliyi əsasında qurulması və bunun qonşularla münasibətlərində təşviq edilməsi, beynəlxalq hüququn aliliyinə Aİ-nin dəstəyinin gücləndirilməsi əsas gözləntilərdən biri olmuşdur. Lakin sənəddə bu ümdə prinsipə açıq istinad yoxdur və bu da öz növbəsində yeni AQS-nin qeyri-adi imkanlarla çıxış edəcəyinə, habelə qonşuluqda illərdir həllini gözləyən mühüm geosiyasi problemlərin həllinə mümkün töhfəsini sual altında qoyur.

   Hesab edirik ki, Azərbaycanın AQS çərçivəsində Aİ ilə əməkdaşlığının inkişaf etdirilməsi ikitərəfli münasibətlərdə beynəlxalq hüquq normaları və beynəlxalq qanunun aliliyi prinsiplərinə Aİ tərəfindən birmənalı hörmət nümayiş etdirildiyi təqdirdə nəzərdən keçirilə bilər.

2. Aİ yeniləşdirilmiş AQS-nin həyata keçirilməsində Aİ üzv ölkələrinin daha çox rol almasını təkid edir. Qeyd edilməlidir ki, bu məsələ Aİ-nin genişlənmə danışıqları və AQS üzrə komissar Yohannes Han tərəfindən indiyədək dəfələrlə qaldırılmışdır. Adıçəkilən komissar qonşuluq ölkələrində xüsusən insan hüquqları, demokratiya və qanunun aliliyi kimi prinsiplərin təşviqində təkcə Aİ-nin fəaliyyətinin yetərsiz olduğunu, bu istiqamətdə Aİ üzv ölkələrinin də paralel iş aparmasının vacibliyini vurğulamışdır. İstisna deyil ki, bu çağırış "2015-2019-cu illər üzrə Aİ-nin İnsan Hüquqları və Demokratiya üzrə Fəaliyyət Planı"nın 3-cü ölkələrə münasibətdə tətbiqi ilə bağlı Aİ üzv ölkələrinin vəzifələrinin yerinə yetirilməsini nəzərdə tutur (Nümayəndəliyin SBRS/487/15 saylı 28.07.15 tarixli məktubuna istinad).

   İnsan hüquqları sahəsində beynəlxalq öhdəliklərin icrasının zəruriliyi Aİ-Azərbaycan münasibətləri kontekstində qarşılıqlı şəkildə irəli sürülməli, miqrant böhranının həllində Aİ və onun üzv ölkələrinin insan hüquqları üzrə beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsi məsələsi qaldırılmalıdır.

3. Aİ AQS ölkələrində islahatların həyata keçirilməsinə təkan vermək məqsədilə "çoxa daha çox" (more for more) təşviqedici alətinin gözlənilən səmərə vermədiyini etiraf edir. Bunun da səbəbləri sırasında bəzi ölkələrdə islahatların aparılması üçün siyasi iradənin olmaması göstərilir. Buna baxmayaraq, Aİ bu kimi ölkələrə münasibətdə daha təsirli siyasət alətlərinin

araşdırılacağını vəd edir. Komissar Y.Hanın məsələyə dair açıqlamasında bildirilmişdir ki, alternativ siyasət alətləri tərəfdaş ölkələr qarşısında "yüksək standartlar qoymaq" məqsədini daşımayacaq, əksinə onlara yardım etməyə hesablanacaqdır.

"Çoxa daha çox" prinsipinin qarşılıqlı şəkildə tətbiq ediləcəyi Aİ tərəfinə bildirilməli və bu xüsusda qeyd olunmalıdır ki, Aİ Azərbaycana daha çox etimad təlqin etdiyi və özünü etibarlı tərəfdaş kimi inandıra bildiyi təqdirdə Aİ-nin arzu etdiyi islahatların həyata keçirilməsi üçün münbit zəmin yaranacaqdır.

4. Aİ təhlükəsizlik sahəsində əməkdaşlığı şaxələndirmək marağında olduğunu bildirir. Aİ eyni zamanda, AQS regionunda həlli uzadılmış münaqişələrin olduğunu etiraf edir. Ərazi bütövlüyünün pozulması ilə nəticələn münaqişələr sırasında Aİ yalnız Ukraynanı qeyd edir. Bu münaqişələrin həlli ilə bağlı gələcəkdə Aİ tərəfindən hər hansı ciddi səylərin göstəriləcəyinə vurğu edilmir. Yeni AQS strategiyasında Aİ-nin müəyyən sənədlərinə (EU Internal Security Strategy, EU's comprehensive approach to external conflict and crises) istinad edilir ki, bununla da Aİ təhlükəsizlik sahəsində əməkdaşlığının hüdudlarını göstərməyə çalışır. Həmin sənədlərin ilkin təhlilinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, Aİ öz rolunu AQS regionunda münaqişələrin qarşısının alınması və böhranların idarə edilməsi ilə məhdudlaşdırır.

   AQS çərçivəsində həlli uzadılmış münaqişələrin həlli ilə bağlı irəli sürülən yanaşma Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində yalnız sərhəd və qoşunların təmas xəttində gərginliyin artırılmasının qarşısının alınmasına deyil, münaqişənin həllində "status-quo"nun dəyişdirilməsinə və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa edilməsi məqsədinə xidmət etməlidir. Gürcüstan, Ukrayna və Moldovadakı münaqişələrin həlli prinsipləri ilə bağlı Aİ-nin vahid mövqeyindən fərqli yanaşma ortaya qoyulmamalıdır.

5. Aİ AQS-nin həyata keçirilməsi üzrə tərəqqi hesabatlarının dərc edilməsi təcrübəsini davam etdirəcəkdir. Lakin bu dəfəki tərəqqi hesabatlarının hazırlanmasında yeni təcrübə tətbiq olunacaqdır. Belə ki, yeni tərəqqi hesabatları AQS ölkələri ilə ayrı-ayrılıqda müəyyənləşdirilmiş prioritet əməkdaşlıq sahələri üzrə görülmüş işləri ehtiva edəcəkdir. Bu hesabatlar tərəflər arasında keçiriləcək yüksək səviyyəli dialoq platformalarında müzakirəyə çıxarılacaqdır.

   Yeni yanaşma tərəqqi hesabatların dərc olunub-olunmaması ilə bağlı qərarın ayrı-ayrı AQS ölkələrinin mövqeyi əsasında qəbul edilməsinə imkan yaradır. Azərbaycan bu məsələni nəzərdən keçirərkən tərəqqi hesabatının əvvəlki dövrlərdən fərqli olaraq ictimailəşdirilməməsi və onun "birgə qiymətləndirmə" məzmununda (məsələn: joint-reporting of progress on negotiations / implementation of Strategic Partnership Agreement) tərtib edilməsi şərtini irəli sürməlidir.

Qeyd etmək lazımdır ki, Aİ ölkələr üzrə spesifik tərəqqi hesabatları ilə yanaşı AQS proqramının maliyyələşdirilməsi ilə bağlı müvafiq Aİ reqlamentlərinin tələblərinə əsasən özünün ayrıca analoji illik hesabatını da dərc edəcəkdir. Bununla əlaqədar olaraq, müqabil tərəfin diqqətinə çatdırılmalıdır ki, Aİ daxili tərəqqi hesabatı əvvəlki dövrlərin analoji sənədlərindən fərqli olaraq AQS-nin həyata keçirilməsi istiqamətində ayrı-ayrı AQS ölkələri tərəfindən görülməmiş işləri deyil, sırf Aİ-nin gördüyü işləri əks etdirməlidir. Başqa sözlə, Aİ daxili bu sənəd Aİ-nin öz maraqları naminə AQS ölkələrini nüfuzdan salmaq məqsədi üçün sui-istifadə edilməməlidir.

6. Aİ bəzi tərəfdaş ölkələrin arzu etdiyi bərabərhüquqlu tərəfdaşlığın yaradılmasında insan hüquqları, qanunun aliliyi və demokratik dəyərlərin təşviqi metodlarında müəyyən çatışmazlıqların olduğunu etiraf edir. Bununla belə, AQS ölkələri ilə münasibətlərində bu dəyərlərdən imtina etməyəcəyini bildirir. Eyni zamanda, bütün AQS ölkələri ilə münasibətlərində insan hüquqlarının bölünməzliyi prinsipindən çıxış edəcəyini qətiyyətlə vurğulayır.

   Aİ-nin bu mövqeyinin Azərbaycan ərazilərinin işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin olunmasına yönəldilməsi Aİ-Azərbaycan ikitərəfli siyasi dialoqunda vahid xətt kimi inkişaf etdirilməlidir.

7. Enerji və iqlim dəyişikliyi yeniləşdirilmiş AQS-də Aİ tərəfindən müəyyən edilmiş prioritet əməkdaşlıq sahələrindən biridir. Pan-Avropa enerji təhlükəsizliyinə nail olunması üçün Cənub Qaz Dəhlizinin tamamlanmasının əhəmiyyəti vurğulanır. Bundan əlavə, son dövrlərdə Aİ-nin üzləşdiyi miqrant probleminin kəskinləşməsi ilə əlaqədar bu sahədə də AQS ölkələri ilə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanır.

   Hesab edirik ki, bu əməkdaşlığın Aİ tərəfindən gələcəkdə hansı formada inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Qeyd etmək istərdik ki, son zamanlar Ermənistan Avropa ölkələrindən fərqli olaraq miqrantlar arasında dil, din və irq ayrı-seçkiliyi etmədən Suriyadan qaçmış miqrantlara öz ölkəsində sığınacaq verdiyini, miqrantların sayının əhalisinin nisbətinə görə Avropa ölkələri arasında 3-cü sırada dayandığını "təqdirəlayiq təcrübə" kimi Aİ ilə dialoqunda davamlı şəkildə qaldırır. İstisna deyil ki, gələcəkdə Ermənistan tərəfi miqrasiya sahəsində Aİ tərəfindən digər formalarda dəstəyin, o cümlədən maliyyə yardımının göstərilməsini xahiş edə bilər. Bu mümkün maliyyə dəstəyi isə Ermənistan tərəfindən Suriyalı erməni əsilli qaçqınların Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırılmasına sərf oluna bilər. Bu gedişat müşahidə olunduğu təqdirdə Aİ tərəfindən bu cür dəstəyin dayandırılması tələb edilməlidir.

8. Aİ AQS-nin müxtəlif bölgələrində, o cümlədən Cənubi Qafqazda sub-regional əməkdaşlığın təşviqini dəstəkləyəcəyini bildirir. Qeyd etmək istərdik ki, bu kontekstdə komissar Y.Han Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması üçün bu ölkələrin biri-biriləri ilə əməkdaşlıq edə bilmələrinin əhəmiyyətini vurğulamışdır.

Komissar Y.Hanın bu çağırışının kökündə bir sıra məlum faktlar dayanır. Xatırlatmaq istərdik ki, Azərbaycan Aİ-nin əhəmiyyət verdiyi Qara dəniz trans-sərhəd əməkdaşlığı proqramında iştirakdan bir neçə dəfə imtina etmişdir. Bunun da əsas səbəbi Ermənistanın da iştirak etdiyi həmin regional proqramın şərtlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə münasibətdə tətbiq edilməyəcəyinə dair Aİ tərəfindən indiyədək zəmanətin verilməməsi olmuşdur.

Aİ-nin bu mövqeyi Azərbaycanın sub-regional əməkdaşlıq proqramlarında iştirak səviyyəsi ilə bağlı natamam dəyərləndirmədir. Belə ki, Azərbaycan AQS çərçivəsində təklif olunan əksər regional proqramlarda məlum səbəblərdən iştirak etməsə də, bu gün Aİ-nin strateji marağında olan və dəyəri milyardlarla ölçülən Cənub Qaz Dəhlizi kimi iri trans-regional layihənin təşəbbüskarı və əsas icraçılarındadır. Bu layihə Aİ-nin Assossiasiya Sazişi imzaladığı Gürcüstanı, Aİ-nin iki namizəd ölkəsi Türkiyə və Albaniyanı və üç Aİ üzv ölkəsini Bolqarıstan, Yunanıstan və İtaliyanı özündə birləşdirir. Aİ Azərbaycanın sub-regional proqramlarda iştirakını daha çox təşviq etmək istəyirsə Cənub Qaz Dəhlizini müsbət təcrübə kimi təbliğ etməli və onun uğurla başa çatdırılması üçün hərtərəfli dəstək göstərməlidir.

9. Aİ yeniləşdirilmiş AQS-nin həyata keçirilməsində Aİ tərəfindən "qonşuların qonşuları" ilə işləməyin vacibliyinə toxunur. Bu, əsasən Avrasiya məkanında mövcud inteqrasiya blokları ilə əməkdaşlıqla bağlı AQS ölkələrinin suveren seçimlərinə təsir etmək istəyən Rusiyanın müdaxiləsini azaltmaq məqsədini daşıyır. Bununla yanaşı, Aİ "qonşuların qonşuları" məfhumunu Türkiyə üçün də istifadə edir. Aİ qonşuluqda həyata keçirəcəyi bir sıra tematik proqramlarda Türkiyənin tərəfdaş kimi vacib rol oynaya biləcəyini istisna etmir.

Qeyd etmək istərdik ki, Türkiyə ilə Aİ arasında münasibətlər son dövrlər intensiv mərhələyə keçmişdir. 29 noyabr 2015-ci il tarixində Brüssel şəhərində keçirilmiş Aİ-Türkiyə Zirvə toplantısının görüşündə adıçəkilən ölkənin Aİ-yə üzvlük prosesinin canlandırılmasına qərar vermişdir. Bu xüsusda, Aİ ilə Türkiyə arasında üzvlük danışıqları üzrə yeni fəslin açılması, mövcud Gömrük İttifaqının təkmilləşdirilməsi, vizaların ləğv edilməsi prosesinin sürətləndirilməsi kimi vacib qərarlar qəbul edilmişdir. Bundan əlavə, 2016-cı ilin birinci rübü ərzində Türkiyə və Aİ arasında yüksək səviyyəli iqtisadi dialoq mexanizminin icrasına, həmçinin strateji enerji əməkdaşlığı üzrə yüksək səviyyəli görüşlərin keçirilməsi haqda razılıq əldə edilmişdir. Türkiyənin Rusiya ilə korlanan münasibətləri qarşılığında bu ölkənin Aİ ilə siyasi-iqtisadi dialoqunun möhkəmlənməsi Azərbaycan-Aİ münasibətlərinin müəyyən vacib aspektlərinin inkişaf etdirilməsində "qonşuların qonşuları" qismində Türkiyənin əsas tərəfdaş qismində çıxış etməsinə imkan yaradır.

Onu da nəzərinizə çatdırırıq ki, Aİ yeniləşdirilmiş AQS strategiyasını Aİ-nin bu ölkələrlə gələcək ikitərəfli və çoxtərəfli əməkdaşlığı üçün yeganə vahid çərçivə olmadığını iddia edir. Bu nöqteyi-nəzərdən, yeniləşdirilmiş AQS strategiyasında müəyyən olunmuş prioritetlərin həyata keçirilməsi məqsədilə Aİ-nin

Azərbaycanla aparacağı danışıqlar və müzakirələr zamanı bu sənədin Aİ tərəfindən əsas istinad mənbəyi kimi təqdim edilməsi cəhdlərinə cavab olaraq AQS üzrə ictimai məsləhətləşmələr zamanı Azərbaycanın vaxtilə Aİ-yə təqdim etdiyi təkliflərin və Azərbaycanın gündəliyində olan digər məsələlərin rəhbər tutulmasını məqsədəuyğun hesab edirik.

Yeniləşdirilmiş AQS çərçivəsində Aİ-nin ikitərəfli münasibətlərdə irəli sürəcəyi prinsiplər Azərbaycanın milli maraqları ilə ziddiyət təşkil edəcəyi təqdirdə Azərbaycanın AQS və onun Şərq ölçüsündən çıxması ilə bağlı hüququnu özündə saxlayacağı ilə bağlı ismarıcın müqabil tərəfə bildirilməsini təklif edirik.

Nəzərdən keçirilməsi üçün diqqətinizə təqdim olunur.